**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№4 Humanitar elmlər seriyası 2015***

**UOT(479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ AQRAR MÜNASİBƏTLƏR 20-30-CU İLLƏRİN SOVET TARİXŞÜNASLIĞINDA

**R.K.KƏRİMLİ**

***AMEA. A.A.Bakıxanov ad. Tarix İnstitutu***

***kerimli-878@mail.ru***

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar münasibətlərin 20-30-cu illər sovet tarixşünaslığında təhlili verilir. Sovet ideologiyasının təsiri və sifarişi ilə yazılan bu əsərlərdə göstərilirdi ki, AXC-nin daxili siyasətində bəy-xan və burjua maraqları rəhbər tutulurdu. Bu isə öz növbəsində 23 aylıq hakimiyyəti dövründə AXC-də aqrar məsələnin həllinə mane olurdu. Hökumət bu problemin həlli ilə bağlı heç bir tədbir görməmişdi.*

*Bununla belə 20-30- cu illər sovet tarixşünaslığı etiraf edirdi ki, AXC hakimiyyəti aqrar problemin həllinə cəhd etmişdi.*

**Açar sözlər:** Sovet tarixşünaslığı, Azərbaycan Xalq Cümhuriyyəti, aqrar məsələ, Müsavat, bolşeviklər

Bütün siyasi hakimiyyətlər dövründə olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətində (AXC) də aqrar məsələ xüsusi aktuallıq kəsb edirdi. Bu aktuallığı nəzərə alan sovet tarixçiləri öz əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinə diqqət yetirmişlər.

Bolşeviklərin aqrar məsələdən siyasi məqsədlər üçün istifadə etməsi danılmaz faktdır. Təsadüfi deyil ki, bolşeviklər öz təbliğatlarını digər sosial məsələlərlə yanaşı, aqrar məsələ üzərində də qururdular. Sözsüz, AXC dövründə vəziyyətin gərginləşməsi üçün aqrar məsələ katalizator rolunu oynamışdır. Qeyd edilməlidir ki, 20-30-cu illərin bir sıra sovet tarixçiləri – A.Rayevski, A.Steklov, Y.Rathauzer və başqaları bu dövrdə yazdıqları əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinə ümumi şəkildə toxunmuşlar. Bəzi sovet tarixçiləri isə, qeyd edilən məsələni tədqiqat obyektinə çevirmişlər. Bu tarixçilərə M.Ağayevi, Pçelini və s. misal göstərmək olar. Təqdim olunan məqalədə 20-30-cu illərin sovet tarixşünaslığının Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinə münasibəti araşdırılır.

A.Rayevski özünün “Английские “друзья” и Мусаватские “патриоты” (1927) əsərində (3) Cümhuriyyət dövrünün aqrar siyasətinə səthi yanaşaraq

yazır: "Zəhmətkeş kütlələr ondan (yəni – AXC hökumətindən – R.K.) çarizm qaydalarının tamamilə bərpasından başqa heç nə almadılar: çarizm təsisatları, çarizm qanunları, xəzinə oğurluğu, əyalət özbaşınalıqları və s. Kəndlilər əvvəllər olduğu kimi, yenə də torpaqsız qaldılar. Müsavat partiyasında ən nüfuzlu rol oynayan mülkədarlar torpağın kəndlilərə verilməsi haqda eşitmək belə istəmirdilər (3,12)". Müəllif Müsavat partiyasının mülkədarların mənafeyinə xidmət etdiyini, kəndlilərin çar dövründə olduğu kimi, "müsavat respublikası" dövründə də torpaqsız qaldıqlarını qeyd edir (3,12).

A.Steklov da 1928-ci ildə nəşr olunan "Армия Мусаватского Азербайджана" adlı əsərində aqrar məsələyə toxunur. Müəllif, aqrar məsələni ordu problemlərinin fonunda şərh edir. O, aqrar məsələni, kəndlilərin vəziyyətini, Azərbaycan kəndindəki sosial təbəqələr arasında münasibətləri xarakterizə etməklə qiymətləndirir. Steklovun AXC dövründə aqrar məsələ ilə bağlı fikirlərində müəyyən ziddiyyət ortaya çıxır. Bir tərəfdən, müəllif: "Harada ki, əhalinin var-yoxdan çıxdığı yerlərdə, insanlar acından ölməmək üçün, son dərəcə həvəslə orduya getdiyini, digər tərəfdən isə, müsavat hökumətinin torpaq məsələsini kəndlilərin xeyrinə həll etməməsi geniş kəndli təbəqələrinin orduya getməkdən boyun qaçırmasına səbəb olduğunu göstərir" (5, 53). Müəllif hətta konkret müqayisə apararaq, torpaqların 50%-dən çoxunun kəndlilərin əlində olmadığını, ordu quruculuğuna mənfi təsir göstərən səbəblər içərisində aqrar məsələnin önəmli yer tutduğunu bildirir: "Bundan başqa, kəndlilər görürdülər ki, müsavat hökuməti ordudan aqrar hərəkatın yatırılması üçün istifadə edir, buna görə də onlar öz oğullarını bəy və xanların mülkiyyətini qorumaq üçün orduya vermək istəmirdilər" (5, 53). AXC hökumətinin torpaq məsələsinin həllində heç bir iş görmədiyini vurğulan müəllif yazır: "Torpaq münasibətləri, çarizm dövründə necə idisə, elə həmin formada da qalmışdı" (5, 53).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mövcud olmuş torpaq məsələsinə münasibət Y.Rathauzerin "Şura Azərbaycanı uğrunda mübarizə" (1929) (4) əsərində də öz əksini tapmışdır. Rathauzer AXC hökumətinin aqrar siyasətinə böyük əhəmiyyət verərək, əsərinin birinci fəslini "Torpaq uğrunda" adlandırmışdır. Burada müəllif, Azərbaycan Xalq Cümhuriyyətinin torpaq haqqında 1918-ci il 22 iyun tarixli verdiyi qərarını mülkədarların mənafeyinə xidmət kimi qiymətləndirir (4, 4)". Müəllif 1919-cu il oktyabrın 2-də torpaq komissiyası tərəfindən müzakirə üçün parlamentin gündəliyinə torpaq islahatı məsələsinin çıxarılmasına baxmayaraq (4, 5), torpaq naziri müavininin gətirdiyi bəhanələr əsasında həmin məsələnin müzakirədən çıxarıldığını qeyd edir. Qeyd edək ki, müəllif Rəsulzadənin çıxış edərək nazir müavininin mövqeyini müdafiə etməsini və onun da məsələnin təxirə salınmasını lazım bildiyini xüsusən vurğulayır (4,6). Fikirlərini sübut etmək üçün Rathauzer, AXC hökumətinin il yarımlıq idarəçiliyi ərzində bu məsələ ilə məşğul olmaq üçün vaxt tapmadığını (4,8), müsavat hökumətinin mülkədarların mənafeyinin müdafiəsi üçün hətta, çar satraplarının imtina etdiyi üsula əl atdığını yazır. Qeyd edək ki, Rathauzer AXC hökumətinin aqrar siyasətinin təhlilində ziddiyyətli fikirlər

irəli sürür. Bir tərəfdən, əvvəlcə 1918-ci ilin dekabr ayında Azərbaycan parlamentinin ikinci iclasında "Müsavat" firqəsinin öz deklarasiyasında torpaq məsələsinin vacibliyini qeyd etdiyini bildirən Rathauzer (4,10), daha sonra hökumətin torpaq islahatını həyata keçirmək üçün heç bir addım atmadığını göstərir (4,16). Müəllif həmçinin, bolşevik mətbuatına istinad etməklə, eyni zamanda Qazax qəzasında kəndli komitələrinin vasitəsilə torpaqların kəndlilər tərəfindən zəbt edildiyini və bölüşdürüldüyünü, bəylərin gizli şəkildə kəndlilərin hakimiyyətini yıxmaq təşəbbüsündə bulunduqlarını qeyd etməklə yanaşı, orduya və hökumətə heç bir vergi vermədiyini bildirir: "lakin ən sevindirici hadisə və böyük faktor bundan ibarətdir ki, Qazax qəzası müftəxorlara, xanlara və bəylərə qulluq etmək üçün bir nəfər də olsa əsgər və Azərbaycan Cümhuriyyəti hökumətinə heç bir vergi verməyir və bunlardan əlavə hökumət qulluqçuları kəndlilərin inqilabi orqanlarına tabe olurlar (4, 21)". Göründüyü kimi, müəllif Azərbaycan Xalq Cümhuriyyətinin aqrar məsələnin kəndlilərin xeyrinə müxtəlif bəhanələrlə yubadaraq həll etmədiyini, digər tərəfdən isə hakimiyyəti idarə edə bilmədiyini bildirir. Beləliklə, Rathauzer AXC hökumətinin aqrar siyasətinin təhlili zamanı Azərbaycan Xalq Cümhuriyyətinin torpaq proqramını siyasi ideologiyanın tələbləri yönümündən izah etməyə çalışır.

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasəti sovet tarixşünaslığında ilk dəfə olaraq ayrıca tədqiqat obyekti kimi Mahmud Ağayevin 1930-cu ildə nəşr olunan "Müsavatın aqrar siyasəti" kitabında araşdırılır. Müəllif mənbə kimi, əsərində Petroviçin "Zaqafqaziyada pambıqçılıq" kitabından, Ali İqtisad Şurasının materiallarından, müsavatçıların orqanı kimi təqdim etdiyi "Açıq söz" qəzeti, "Bakı ictimai kommunist təşkilatları əxbarı", "Qərar və qanunlar külliyyatı", "Daxili İşlər nazirliyi dəftərxanasının arxiv materialları", "Daxili işlər nəzarəti və parlament fondlarının materialları", "Bakı polismeystrinin işi", "Torpaq nəzarəti fondu, torpaq nəzarəti dəftərxanası işi" kimi sənədlərindən istifadə etmişdir.

M.Ağayev əvvəlcə çarizm dövründə aqrar münasibətlər haqqında məlumat verərək, Azərbaycan Xalq Cümhuriyyətində aqrar münasibətləri bir qayda olaraq siyasi aspektdən təsvir edir. Müəllif mülkədarların üstünlük təşkil etdiyi Cümhuriyyət hökumətinin 1918-ci il 22 iyun tarixində verilmiş ilk əmrləri ilə Zaqafqaziya seyminin torpaq üzrə qərarının və Milli şuranın tapşırığının ləğv edildiyini və bu haqda qətnamə qəbul olunduğunu diqqətə çatdırır (1, 23). M.Ağayev sözügedən qətnamənin sonuncu maddəsini mülkədarların inqilabdan əvvəlki hüquqlarının bərpası kimi qiymətləndirir (1, 24). Daha sonra isə, kəndlilərin bu qərarlardan dolayı yaranmış vəziyyətlə hesablaşmayaraq iğtişaşlar törətdiklərini konkret misallarla sübut etməyə çalışır. Bu məqsədlə, Gəncə qəza qaim məqamının hərbi işlər nazirinə göndərdiyi 1918-ci il 10 oktyabr tarixli raportunu göstərilən məlumatları diqqətə çatdırır. Həmin raportda 1918-ci ilin oktyabr ayında Yuxarı Ayıblı kənd camaatının mülkədarların evinə hücumundan bəhs edilirdi. Ağayev başqa kəndlərdə baş verən iğtişaşların xarakterini və şiddətini aqrar məsələ ilə əlaqələndirir (1, 25).

Müəllif, Cümhuriyyət dövründə qəbul edilən "Azad ticarət haqqında" qanunu şərh edərək onu da yeni hökumətin kapitalistlərin qeydinə qalmasının nəticəsi kimi xarakterizə edir. Yeni hökumətin yaranmasından cəmi bir ay müddət keçməsindən sonra torpaqların sahiblərinə qaytarıldığını və bununla da aqrar məsələnin əvvəlki şəklində qaldığını vurğulayır. Parlamentin açılış günündə hökumətin torpaq haqqında verdiyi deklarasiyasını isə, müsavatçıların öz hakimiyyətlərinə demokratiya paltarı geydirməsi kimi şərh edir (1, 26).

Bununla belə, maraqlıdır ki, M.Ağayev aqrar məsələnin həll edilməməsini təkcə AXC hökumətinin gördüyü tədbirlərlə əlaqələndirmir. Torpaq məsələsinin mahiyyətində digər səbəblərin də olduğunu diqqətə çatdıran müəllif yazır: "Sinfi mübarizədə istismar edilənlərə qarşı olan ümumi mənafelərinə baxmayaraq, müttəfiqlər arasında özlərinin sinfi ziddiyyətləri mövcud idi". Bu zaman o, bəy-mülkədar təbəqəsi ilə şəhər burjuaziyasını müttəfiqlər kimi təqdim edərək Azərbaycanda kapitalizmin formalaşmadığı şəraitdə orta əsr feodal münasibətlərini qoruyan mülkədarlarla şəhər burjuaziyasının fərqli sinfi mövqeyə malik olduğunu qeyd edir (1, 27).

Yenidən AXC hökumətinin torpaq deklarasiyasının üzərinə qayıdan müəllif, onun ingilislərin demokratiya oyununa tabe olaraq, hiylə ilə - kəndliləri sakitləşdirmək, kütlələri aldatmaq üçün verildiyi qənaətinə gəlir. M.Ağayev mülkədarların çar dövründəki hüquqlarının bərpası, zorakılıqların həyata keçirilməsində hökumətin onlara verdiyi səlahiyyətləri də torpaq məsələsinin həllini ləngidən amillər sırasına daxil edir (1, 28). Bu arada müəllif təbii olaraq, kəndli ixtişaşlarının səbəbləri üzərində dayanır. O, qəzalardakı iğtişaş və üsyanların kəndli hərəkatına çevrildiyini və bunun məhz AXC hökumətinin aqrar siyasətinin nəticəsi olduğunu diqqətə çatdırır. Eyni zamanda, hökumətin kəndli hərəkatını yatırmaq üçün göstərdiyi cəhdləri də əhatəli şəkildə şərh edir: "Mülkədarlar torpaqları tuturdular, yerli hökumət isə onlara kömək edirdi. Yerli hökumətin başında çox vaxt bəylər özləri dururdular. Bir əllə onlar kəndlilərin torpaqlarını tutub, o biri əli ilə kəndlilərin əlindən aldıqları torpaq üçün kəndlilərdən vergi alırdılar" (1, 30). Digər sovet tarixçiləri kimi qəzalardakı kəndli hərəkatını əsasən, bolşevik mətbuatından gətirdiyi nümunələrlə təsvir edən müəllif, hökümətin hərəkatı yatırmaq üçün hərbi qüvvələrini səfərbər etdiyini yazır: "1919-cu ilin iyununda Qazax qəzasında nizamsızlıqlar yatırılmışdı, lakin bu nizamsızlıqlar o qədər ciddi idi ki, bunları yatırtmaq üçün süvari və topçu hissələri işə salmaq lazım gəlmişdi" (1, 35). Müəllif AXC hökumətinin torpaq məsələsini həll etmək istəmədiyini bildirir. Fikrini əsaslandırmaq üçün isə parlamentin torpaq komissiyasının qanun layihəsini təhlil edir (1, 41). Ağayev onu yarımçıq bir layihə hesab edərək yazır: "Doğrudan da bu qanun layihəsi deyil, yarımçıq bir şey idi". Müəllif hətta bu yarımçıq qanun layihəsinin də mülkədarların mənafeyinə xidmət etdiyini bildirir (1,42). Rəsulzadənin qanun layihəsi ilə əlaqədar çıxışını (1,44) hökumətin həyasız etirafı və özünüifşası kimi şərh edir (1, 45). Ümumiyyətlə, müəllif, AXC hökumətinin torpaq məsələsini həll etmək istəmədiyinə daha çox diqqəti cəmlə-

məyə çalışır. Bu səbəbdən də, əsərin "Torpaq nəzarətinin qanun layihəsi" adlanan hissəsində təkrarən ikinci qanun layihəsini maddə-maddə təhlil edir. Müəllif, hökumətin mülkədarları müdafiə edərək (1, 53), torpaq məsələsini mülkədarların mənafeyinə uyğun həll etdiyini bildirir. Bununla da, o, kəndlilərin çar zamanında olduğundan daha artıq bir boyundurq altına düşdüyünü, hökumətin orta əsrlərə xas vasitələri tətbiq etdiyini və kəndliləri torpaqsız və ya aztorpaqlı halına saldığını vurğulayır (1, 62). Bi sözlə, müəllif, AXC hökumətinin aqrar siyasətini təhlil edərkən torpaq məsələsinin daim mülkədarların xeyrinə həll edildiyi qənaətinə gəlir (1, 64).

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar siyasətinə həsr olunmuş ikinci xüsusi tədqiqat isə, Pçelinin "Крестьянский вопрос при Мусавате (1918-1920)" əsəridir (2). Pçelinin əsəri aqrar sahəyə dair daha peşəkar tədqiqat olsa da, siyasi konyukturadan xali deyil. Müəllif AXC hökumətinin aqrar siyasətinin müqayisəli təhlilini verməyə çalışır. Bu məqsədlə, Azərbaycan kəndində sosial-iqtisadi vəziyyətin ətraflı, lakin eyni zamanda sovet tarixçünaslığının tələblərinə uyğun şəkildə təsvirini verir. Kənd əhalisinin böyük hissəsinin torpaqla təmin olunmadığını, geniş torpaq sahələrinin xüsusi sahibkarlara, hüquqi şəxslərə və xəzinəyə məxsus olduğunu, ehtiyacı olan kəndlilərə torpaqların şərtlərlə icarəyə verildiyini qeyd edən müəllif, əsas mənbə kimi Müsavatın "İzahat vərəqəsi"nə əsaslandığını bildirir (2, 1). Pçelin "İzahat vərəqəsi"nin "Azərbaycan kəndlisi daha yaxşı yaşayır, nəinki rus kəndlisi" fikrinin sübutu üçün hazırlandığını göstərir. Müəllif əkinəyararlı torpaqların çox hissəsinin kimə məxsus olduğunu əyani şəkildə göstərmək üçün rəqəm göstəricilərinə istinad edir: "xəzinənin əlində-dövlətdə torpaqların 32,4%, bəylərin əlində isə 18,9%-dir. Başqa cür desək, torpağın 51,3% istismarçıların, yalnız 48,%-i isə kəndlilərin əlindədir" (2, 2). Bu göstəricilərlə Pçelin, torpağın mülkədarların əlində olduğunu sübut etməyə çalışır. Kənddəki mövcud sosial vəziyyətin, milli münasibətlərin kompleks şəkildə mürəkkəbləşdirilməsinin aqrar məsələyə çətinlik və dolaşıqlıq gətirməsi fikrini irəli sürən müəllif, eyni zamanda bu münasibətlərin elə də mühüm olmadığını qeyd edir. Pçelin AXC hökumətinin ümumiyyətlə, aqrar məsələnin həllində tələsmədiyini (2, 6), digər tərəfdən isə, parlamentin 12-ci iclasında-1919-cu ilin fevralın 4-də parlament üzvlərindən ibarət aqrar komissiyanın yaradıldığını bildirir (2, 22). Aqrar məsələnin parlament iclaslarında bir neçə dəfə qoyulmasına cəhd göstərildiyini, lakin müzakirənin keçirilmədyini qeyd edən müəllif, müsavatçıların burjua-mülkədar hökumətinin bu məsələ haqda yalnız söhbətlər, dəftərxana yazışmaları apardığını, hətta "Azərbaycan" qəzetinin həmin prosesləri işıqlandırdığını bildirir: "Hazırda torpaq islahatı ilə əlaqədar gücləndirilmiş hazırlıq işləri gedir". Qeyd edək ki, müəllif siyasi rejimin sifarişini yerinə yetirməsinə baxmayaraq, AXC hökumətinin torpaq məsələsini həll etmək üçün gördüyü işləri sistemli şəkildə sadalayır. Pçelin aqrar məsələ ilə heç kimin məşğul olmadığını, lakin bununla belə, AXC hökumətinin aqrar məsələnin həlli yönümündə atdığı addımlardan birini-torpaq nazirliyində 1919-cu il 6 iyun tarixində "Aqrar İslahat Şöbəsi"nin

təsis edilməsini göstərir. Maraqlıdır ki, Pçelin aqrar islahat şöbəsinin hansı məqsədlə yaradıldığını açıq göstərir: "Şöbənin vəzifəsi torpaq islahatına hazırlığın yerinə yetirilməsi və dərindən tədqiq edilməsindən, eləcə də hökumətin qanunvericiliyə uyğun fikirlərinin, gələcəkdə isə torpaq islahatının həyata keçirilməsində rəhbərliyin irəli sürdüyü bütün işləri həyata keçirməkdən ibarət idi" (2, 23). Müəllif, hökumətin aqrar siyasətini xarakterizə edərək müsavat hökumətinin torpaq məsələsini həll etmək fikrində olmadığını, kəndliləri aldatdığını bildirir (2, 26). Ardınca isə, parlament iclasında yarımçıq aqrar qanunun qoyulmasını kəndli hərəkatının yüksəlməsi ilə əlaqələndirərək, müzakirəyə çıxarılmış qanunun bəylərin mənafeyini müdafiə etdiyini yazır: "lakin təqdim edilmiş qanun kəndlilərin deyil, ilk növbədə bəylərin maraqlarını təmin edirdi" (2, 30). Qeyd edilməlidir ki, Pçelin AXC hökumətinin aqrar siyasətini siyasi rejimin tələbləri baxımından xarakterizə etsə də, hökumətin bu sahədə gördüyü tədbirləri göstərmişdir. Pçelin də digər müəlliflər kimi, əsas mənbə olaraq bolşevik mətbuatına - "İzvestiya", "Bakinski raboçi", qəzetlərinə, "Baku" qəzetinə, müsavat mətbuatına, o cümlədən "Azərbaycan" qəzetinə, AXC-nin Torpaq nazirliyinin, Azərbaycan parlamentinin, Daxili İşlər Nazirliyinin materiallarına istinad etmişdir.

Beləliklə, 20-30 cu illərin sovet tarixşünaslığında AXC- də aqrar məsələnin şərhi ilə bağlı bir sıra ümumi nəticələr ortaya çıxır. Bu dövrün tarixçiləri əsərlərində cidd-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mülkədar-bəy hakimiyyəti olaraq aqrar məsələni kəndli təbəqəsinin xeyrinə həll etmək fikrində olmadığını sübut etməyə çalışırlar. Bu səbəbdən də, hökumətin həmin istiqamətdə atdığı addımları da təhlil etməli olurlar. Nəticədə isə, təzadlı vəziyyət yaranır. Belə ki, AXC hökumətinin aqrar məsələni həll etməkdə maraqlı olması fikri 20-30-cu illərin sovet tarixşünaslığında üstünlük təşkil edir.

Lakin müxtəlif obyektiv və subyektiv səbəblər üzündən AXC hökuməti aqrar məsələ haqqında qanun layihəsinin normal müzakirəsini belə keçirə bilmədi.

Ümumiyyətlə isə, AXC dövründə aqrar münasibətlər dövr tarixşünaslığında müəlliflərin siyasi və sinfi mövqeyindən işıqlandırılmışdır. Hakim partiyanın sifarişi ilə meydana çıxan bu əsərlər, sovet ideologiyasına xidmət etdiyindən, tarixi həqiqətin təhrif edilməsinə səbəb olmuşdur.

### ƏDƏBİYYAT


1. Ağayev M. Müsavatın aqrar siyasəti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1930.
2. Пчелин Н. Крестьянский вопрос при Мусавате. Баку: Аз ГИЗ, 1931.
3. Раевский А. Английские «друзья» и Мусаватские «патриоты». Баку: Аз ГИЗ, 1927.
4. Rathauzer Y. Sovet Azərbaycanı uğrunda mübarizə. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1929.
5. Стеклов А. Армия Мусаватского Азербайджана. Баку: Аз ГИЗ,1928.

## АГРАРНЫЕ ОТНОШЕНИЯ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ В СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ 20-30-ЫХ ГОДОВ

**Р.КЕРИМЛИ**

### РЕЗЮМЕ

В статье анализируеться аграрные отношения во времена АДР советской историографии. В произведениях написанные под влиянием и по заказу советской идеологий указывается, что Азербайджанская Демократическая Республика являлась антинародной, руководствовала роль беков-ханов и буржуазии, все это мешало решениям аграрных вопросов и во время 23-х месьячный власти АДР никаких мер не принимались, решениям проблем. Но, несмотря на это, советская историография признается, что во времена власти АДР пыталась решать аграрные проблемы.

**Ключевые слова:** Советская историография, Азербайджанская Демократическая Республика, аграрный проблем, Мусават, большевики.

## AGRICULTURAL TREATMENTS DURING THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN IN THE 20-30 YEARS OF SOVIET HISTORICOGRAPHY

**RUHANGIZ KARIMLI**

### SUMMARY

The article studies the attitude of the Soviet authors to the agricultural problems in ADR. The Soviet historiography, admits the Democratic Republic of Azerbaijan tried to solve the agricultural problems.

**Key words:** Soviet historiograhpy, Azerbaijan Democratic Republic, agrarian issue, Musavat, bolsheviks